# “DOST İş” Mərkəzi “YAŞAT” Fondunun şəhid ailələri və qazilərlə bağlı tədbirlərinə dəstək məqsədilə 150 nəfəri işlə təmin edib

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki “DOST İş” Mərkəzi “YAŞAT” Fondunun şəhid ailələri və qazilərlə bağlı tədbirlərinə əlavə dəstəyin göstərilməsi məqsədilə 150 nəfəri işlə təmin edib.

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, “İşsizin DOST”u proqramı çərçivəsində 150 sosial işçi Bakı və regional “ASAN xidmət” mərkəzlərinə təhkim edilib.




İşə qəbul olunan 150 nəfərin hər biri ilə mərkəz arasında əmək müqaviləsi bağlanıb. Ümumilikdə “İşsizin DOST”u proqramı çərçivəsində hazırda 56 min şəxs ödənişli ictimai işlərdə çalışır.

Azərbaycan.- 2021.- 4 sentyabr.- S.4.